

İSMAYIL MƏRCANLI İMANZADƏ

## ŞƏHİDLİYİN ZƏFƏR NƏĞMƏSİ

*(Allah cəmi şəhidlərimizə rəhmət eləsin!)*

Tanrı dəhgahınadır, Şəhidim, son səfərin,
Yadlara göz dağıdır, qazandığın Zəfərin.
Hamı sənə ürəkdən deyir, Əhsən, Afərin!
Vətən-yurd sevgisidir halal qazancın-varın -
Əbədi yolçususan nur saçan sabahların!

Gur səsinlə,- "Qarabağ-Azərbaycandır!"-dedin,
Torpağım, dağım-daşım ürəkdir-candır-dedin!
Şəhid ya Qazi olmaq, şərəfdir-şandır-dedin!
Nəqş elədin imzanı torpağa al qanınla -
Tanındın hər tərəfdə isminlə, ünvanınla!

Uğrunda can verdiyin bu ana torpaq sənin,
Döyüş günü səsini əks etdirən dağ sənin.
Bayraqdarı olduğun üçrəngli bayraq sənin,
Şəhid ucalığında vətən daşına döndün -
Azadlıq nəğməsinə, Zəfər marşına döndün!

Ünyetməyən məkana qalxıb ölümsüz oldun,
Andına, peymanında, ilqarında düz oldun.
Qarı düşmən önündə hər an yenilməz oldun,
Məzarın and yeridir, adın hər qəlbdə naxış -
Şəhidim, əhsən sənə, hünərinə min alqış!

## BÖYÜK MƏRCANLIDAN BİR QATAR KEÇİR

*(Köçkünlüyün ilk illərində Ukraynanın Odessa şəhərində müvəqqəti olaraq məskunlaşıb, oradakı Azərbaycanlılardan ibarət olan icmanın sayılıb-seçilən fəallarından olan həmkəndlim Ağayev Anar Natiq oğluna)*

Böyük Mərcanlıdan bir qatar keçir,
Fit çalıb səsləyir doğma yolları.
Böyük Mərcanlıdan bir qatar keçir,
İsinir relslərin polad qolları.

Mahmudlu, Soltanlı, Qumlaq anbaan,
Göz dikir qatarın yoluna yenə.
Açıb qollarını Hacı Qaraman,
Şükr edir Tanrının böyüklüyünə.

Yenə Cəbrayılda günəş nur saçır,
Topcağa, Gəyənə tanış səs düşür.
Diridə al-əlvan çiçəklər açır,
Qatarı görməkçün bəhsə-bəhs düşür...

Elə bil tələsir Muğana Araz.
Sular soraq verir Xudafərindən.
Çatır Ağoğlana, Teyə xoş avaz,
Ulu Tumasata qalxır yerindən.

Həkəri, Mincivan, Ağbənd... bir anda,
Çıxır pişvazına gələn qatarın.
Toy-büsat iz salır ürəkdə-canda,
Avazı durulur kamanın, tarın.

Böyük Mərcanlıdan bir qatar keçir,
Yönü Naxçıvana, üzü Şərura.
Zəngəzur özünə təzə yol seçir,
Boyanır yurd-oba işığa-nura...

Hər eldə Zəfərdən bir nişanə var,
Haqqa tapınanın qatlanmaz dizi.
Böyük Mərcanlıya yön alan qatar,
Doğma torpaqlara səsləyir bizi.

## RUHUMLA YAZMIŞAM ŞEİRLƏRİMİ

Təbim ya nəslimdən, ya haqdan gəlib,
Dumduru su kimi bulaqdan gəlib.
Avazı yaxından-uzaqdan gəlib,
Bağrıma basdığım şeirlərimin.

Sanmayın hardasa xətrimə dəyib.
Könlümün "qapısın" dost kimi döyüb.
Dözmüşəm "nazına" "əynimə geyib",
"Ütüsün" pozduğum şeirlərimin.

Qoymayıb islanam yağışda-qarda,
Qolumdan yapışıb çətində, darda.
"Şəklinə" baxmışam axar sularda,
"Yuxusun" yozduğum şeirlərimin.

Hamıya bəllidir sənətim, peşəm.
Söz məni qoymayıb heç kökdən düşəm.
Sonunda bir zərrə işıq görmüşəm,
İçində azdığım şeirlərimin.

Bəzən misa-misra sızlayıb qanda,
Gözümdən düşəndə "ölüb" bir anda.
Ahı ərşə qalxıb, cırıb atanda,
"Qəbrini" qazdığım şeirlərimin.

Çiynimdə o, ağır bir yük olmayıb,
Qarşımda nə yoxuş, nə dik olmayıb.
Kölgəsi üstümdən əskik olmayıb,
Ruhumla yazdığım şeirlərimin...

## SONRASI NƏ OLA, OLA

Bir də ələ düşməz ömrün bu çağı,
Dolaşaq hər yanı dərviş sayağı.
Hərdən gözdolusu aranı-dağı,
Seyr edək, sonrası nə ola, ola!

Bizi zəmanəmi odlara yaxdı?
Dumduru sular da bulanıb axdı.
Gərəksə, yüyürüb vədəni-vaxtı
Gəl ötək, sonrası nə ola, ola!..

Bəlkə sığınmayaq nisgilə-aha,
Gördünmü, ölüm də hər şeydən baha?
Qoymayaq bir istək qalsın sabaha,
Qalx gedək, sonrası nə ola, ola!

## BİR İL DƏ ADLAYIB KEÇDİ BELƏCƏ

Gah erkən oyanıb, çox gec də yatdıq,
Gah da başımızı yalanla qatdıq.
Nə əzəldən qopduq, nə sona çatdıq,
Bilmədik sabahdır, yoxsa ki, gecə -
Bir il də ömürdən keçdi beləcə!

Heç demə yüyürüb-yortmaq çətinmiş,
Bəxtin yaxasından dartmaq çətinmiş.
Azala-azala artmaq çətinmiş,
Haqdan üz döndərib, baş əydik gücə -
Bir il də ömürdən keçdi beləcə!

Hərdən damla-damla duruldaq bir az,
Ölümün boynuna sarıldıq bir az.
Bəxti qova-qova yorulduq bir ax,
Qaçsaq da qoşula bimədik köçə -
Bir il də ömürdən keçdi beləcə!

Quş kimi budaqdan-budağa qonduq,
Şirin yalanlara uyub, inandıq.
Arzunu-həvəsi bələdçi sandıq,
Tutdu qolumuzdan gah yol, gah küçə -
Bir il də ömürdən keçdi beləcə!

## QAYITMAĞA ÜZÜN VARSA, QAYIT GƏL

Yan-yörəmdən külək kimi ötmüsən,
Bilirsənmi necə günah etmisən?
Suçun yoxsa, niyə xəlvət getmisən,
Tapdanmamış izin varsa, qayıt gəl!

Adlayanda zülmət küncdən-bucaqdan,
Heç mərhəmət dilədinmi sən, haqdan?
Nicat umsan söndürdüyün ocaqdan,
Bircə qalam közün varsa, qayıt gəl!

Susayanda ürəyimin qanına,
Necə qaçıb tez gələydim yanına?
Çox qalıbsa hələ yolun sonuna,
Deyiləsi sözün varsa, qayıt gəl!

Di, keç görüm uçurduğun körpüdən,
Qovrulubsa cücərərmi bir də dən?
Yollarına göz dikmərəm təzədən,
Qayıtmağa üzün varsa, qayıt gəl!

## LƏNGİMƏ

Bəxt dəryada ləngər vuran gəmidir,
Aciz adam zəmanənin yemidir.
Sağ da, sol da yolayrıcı kimidir,
Sən onlardan birini seç-ləngimə!

Bədxahların bir az fəndgir, ya kürsə,
Bel bağlama nə qəzəbə, nə hirsə.
Fikrin səni uzaqlara çəkirsə,
Gedəsisən ya tez, ya gec-ləngimə!

Könül açan həzin nəğmə, söz incə,
Ağıllı kəs zəhər qatmaz sevincə.
Bir namərdin "körpüsündən" ötüncə,
At özünü gur suya keç-ləngimə!

Şıltaq tale nə dayazdır, nə dərin,
Yıxılana nə faydası "çəpərin"...
Halallıqdır dil-dilçəyi təpərin,
Ümid etmə özgəyə heç-ləngimə!

Səhvin varsa, suçlu bilmə yaşını,
El gözüdür müdrikliyin arşını!
Əgər ağlın girləmirsə başını,
Bu dünyadan vaxtikən köç-ləngimə!

## NEYLƏYƏK

Dünya zülmət, sökülmür dan,
Tapdalanıbdır şərəf-şan.
Kimsə şərin yaxasından
Tutub dartmırsa, neyləyək?

Qalınmış sükutun buzu,
Qaçıb ağzın dadı-duzu.
Yalanın "ayı-ulduzu"
Hələ batmırsa, neyləyək?

İnsanlıq qul bazarında,
Sayı yoxmuş azarın da...
Ölülər öz məzarında
Rahat yatmırsa, neyləyək?

Elə bil tapdanmış yoluq,
Söz var acı, söz var ılıq...
Ha "suvarsaq" da yaxşılıq
Bitib artmırsa, neyləyək?

Başa qiymət verir qarın,
Güc qapır, gücsüzün varın.
Bir acgöz-harın məmurun
Köpü yatmırsa, neyləyək?

Hərə üz tutur bir yana,
Əllər batıb nahaq qana.
Tanrının hökmü şeytana
Əgər çatmırsa, neyləyək?

## DÜNYA YAŞAMALI DÜNYA DEYİLMİŞ...

Bitib-tükənməyir cəngi-davası,
Çirklənir günbəgün suyu, havası.
Sağı da, solu da şeytan yuvası,
Dünya yaşamalı dünya deyilmiş!

Alim tanıyıram, yedəkdə gedir,
Şair var qoltuqda, ətəkdə gedir.
Oğlan qız evinə "gərdəkdə" gedir,
Dünya yaşamalı dünya deyilmiş!

Sülengi yaltaqlıq əmrə müntəzir,
Zəmanə haqlını tapdayıb əzir.
Halallıq zülmətdə ədalət gəzir,
Dünya yaşamalı dünya deyilmiş!

Məddahlıq qazanclı peşəyə dönüb,
Biclik eyş-işrətə, nəşəyə dönüb.
Vəzifə ta evə-eşiyə dönüb,
Dünya yaşamalı dünya deyilmiş!

Yamanlıq tapdayıb rəddini onun,
Vurub uçurublar səddini onun.
İkiqat ediblər qəddini onun,
Dünya yaşamalı dünya deyilmiş!

Kasıblıq çoxunun gözündə tirdir,
"Balaca padşahlar" hökmə əsirdir.
Həyat başdan-başa kəmdir-kəsirdir,
Dünya yaşamalı dünya deyilmiş!..

Demərəm yamanlıq üstünü alsın.
Nə bircə yarpağı, nə gülü solsun.
Qurdla qiyamətə qalanlar, qalsın,
Dünya yaşamalı dünya deyilmiş!

## MƏN SƏNİ UNUDA BİLƏRƏMMİ HEÇ

Nə əllərim çatır, nə ünüm sənə,
Bir şəklim tanışdır, bir yönüm sənə.
Tanrı duasıdır hər günüm sənə,
Üzün güləcəkdir ya tez, ya da gec -
Mən səni unuda bilərəmmi heç?!

Kaş, xoşbəxt edəydi Yaradan səni,
Niyə atıb getdi bir nadan səni?
Söylə, bəxtindimi ağladan səni,
Əgər yanıldımsa, günahımdan keç -
Mən səni unuda bilərəmmi heç?!

Etibar eləmə köhnəlmiş izə,
Baxışın nur saçır, ruhun təmtəzə.
Bir gün gələsiyik yəqin üz-üzə,
Nə vaxtsa geriyə dönəcəkdi köç -
Mən səni unuda bilərəmmi heç?!

Yürüyüb bəxtini tutmağı öyrən,
Dərdini-qəmini atmağı öyrən.
Ömrünə şirinlik qatmağı öyrən,
Özün öz yolunu öz ağlınla seç -
Mən səni unuda bilərəmmi heç?!

## SÖZ BAZARI

Boyat kəlmə nə şəkərdi, nə duzdu,
Öz gücünə güvənənlər uduzdu.
Dostum, indi söz hər şeydən ucuzdu,
Görürsənmi, satan çoxdu, alan az!

"Bəh-bəh" deyir hərəyə öz dəstəsi,
Alqışlanır naşıların "bəstəsi".
Qərar verən "münsif" tərif xəstəsi,
Yaddaşlarda xatırlanıb qalan az!

Ərəmik söz "tilovla" hay-küy tutur,
Haqsızlığı nə yer, nə də göy tutur.
"Dişsiz" tənqid təmənnalı züy tutur,
Zənn etmə ki burda əfi "ilan" az!

"Rütbəli"lər yaman səsli-soraqlı,
Yamanlığın acı dili yaraqlı.
Di, gəz görüm bəxti əliçıraqlı,
Necə deyim, sən nişanda olan az!

Anladınmı, şairlik bir azardı,
Ta "nalbənd" də, pinəçi də yazardı...
Qəm eləmə, bu da bir cür bazardı,
Bax, demə haa.. burda zurna çalan az!